# "Bir bülbülün türküsü" nəşr olundu




***Əli Rza Xələfli* (Əzizli Əlirza Zal oğlu) "Bir bülbülün türküsü" *(poema və publisistik qeydlər)*** "Gənclik" nəşriyyatı, 2022. 123 səhifə.

***Şair-publisist Əli Rza Xələflinin "Bir bülbülün türküsü" adı ilə oxuculara təqdim olunan kitabına gənc şərqşünas Əbil Etibar oğlunun xatirəsinə həsr olunmuş poema və esselər toplanmışdır. "Bir bülbülün türküsü" poemasında ictimai fikir tariximizin maraqlı səhifələrinə poetik nəzər yetirilir. İstedadlı şərqşünasın həyatı fonunda oxucu qürurun və kədərin ümumi axarına qovuşur. Əsər klassik poeziyamızın ənənəsi ruhunda yazılmışdır.***

***Kitabın "Əlavələr" bölməsində görkəmli ədəbiyyatşünas alim İmamverdi Əbilovun müəllifə ünvanlanmış məktubları və Xalq şairi Zəlimxan Yaqubun həyatla vaxtsız vidalaşmış Əbilin itkisi ilə bağlı doğmalarına həsr olunmuş iki şeiri də yer alıb.***

***"Bir bülbülün türküsü" kitabının*** redaktoru və ön sözünün müəllifi ***ədəbiyyatşünas tənqidçi* Qurban Bayramov, rəyçisi və son sözünün müəllifi *filologiya elmləri doktoru, professor* Yədulla Ağazadədir.**

* * *

Neçə illər bundan qabağın sözüdür (1915) olduğu kimi yenidən təkrar ediriəm: "Lap əvəldən başlamaq istəyirəm. Elə, Əli Rza Xələflini tanıdığım vaxtdan. Daha bu imzaya, bu ada şair, yazıçı, publisist, jurnalist, tədqiqatçı adlarını əlavə etmədən. Çünki, Əli Rza Xələfli imzası müasir ədəbi və ictimai mühitdə özünə elə köklü-köməcli yer tutubdur ki, adı çəkilən kimi bunların hamısı yada düşür. Özü də, həqiqət naminə, onu da deyim ki, sıraladığım bu yaradıcılıq sahəsinin hər birində Əli Rza Xələfli özünəməxsus, orjinal bir məqamdadır və elə, onun bircəsi ilə də, məşğul olsaydı tanınacağıdı, seviləcəyidi, rəğbət doğuracağıdı...

Səhv etmirəmsə, buna yaradıcılıq polifonizmi deyirlər, başqa sözlə, Əli Rza Xələfli çoxşaxəli yaradıcılıq imkanlarına malik "qələmsiz" qələm adamıdır və mən özüm də, elə əvvəldən onu bu cürə tanımışam... "Qələmsiz qələm admı" ifadəsini də, deyəsən, onun haqqında ilk dəfə mən işlətmişəm, özü də, bir əlavə ilə, demişəm ki, Əli Rza Xələfli qədim Roma filosofları kimi, nə yaradırsa, bir əli cibində, bir əlində siqaret tutaraq qələmsiz-kağızsız diktə edir. İndi də, bu fikri improvizə edərək, əlavə edirəm ki, nə yaradırsa şifahi şəkildə yaradır. Elə ona görə də, onun bütün yaradıcılığı şifahi xalq yaradıcılığı təkin şirin, cazibədar və diqqətçəkəndir...

Bu sözləri də, onun haqqında mən yazmışam və təkrar etməkdə məqsədim budur ki, fikrimi gəlişigözəl söz təkin yox, sabit qənaətim təkin irəli sürmüşəm: "Mənim üçün (həmçinin eləcə də onu tanıyanlar üçün də) heç bir metaforaya sığışmayan bir qələm əhli, ürək və əqidə dostum var - bu, şair, yazıçı, publisist-jurnalist, tədqiqatçı-tənqidçi Əli Rza Xələflidir! Bu adın, bu imzanın özü müasir ədəbi prosesdə həyatı bədii-fəlsəfi dərkin və inikasın bütöv bir sistemini özündə ehtiva etməyə qadirdir!.. Əli Rza Xələfli adı, imzası ədəbi-bədii siferada ülfət və ünsiyyət mücəssəməsidir! Ülfət və ünsiyyət intiqralının bütün kodları onun ürəyinin, qəlbinin döyüntüləri ilə kodirovka ola bilər!.."

***Qurban BAYRAMOV***

İl ötür... il gəlir. Beləcə, ömrümüz, həyatımız illərin əvəzlənməsi ilə dəyişməkdə davam edir. Yaşımızın üstünə yaş gəlir. İstər-istəməz yaşadığımız günlərin unudulmayan anları xatirələrə çevrilir. Başa varmayan arzularımız üçün yeni ilə planlar qurur, yollar arayırıq.

Mən uzun illərdir ki, Əli Rza Xələflini tanıyıram. Əvvəlcə ədəbi yaradıcılıq əlaqələrimiz yarandı. Sonra ünsiyyət sıxlığı başladı. Öz payıma deyirəm ki, heç bilmədim bu münasibət nə vaxt dostluğa çevrildi.

Heç kim düşünməsin ki, bir kitaba rəy üçün yazılan sözlər dostluq münasibətinin təsiri altında qələmə alınır. Əgər hər hansı bir müəllif yazısında faktlara əsaslanırsa, olanların təəssüratını qələmə alırsa, burada artıq şəxsi münasibətlər istər-istəməz arxa plana keçir.

Sosial şəbəkədə Əli Rza Xələfli haqqında professor Qulu Məhərrəmlinin belə bir sözü tez-tez təkrar olunur: "Xələfli sözün həqiqi mənasında təbiət hadisəsidir". Yəqin ki, Əli Rza Xələflini yaxından tanımayan, onun yaradıcılığına, xüsusilə dağ çayları kimi çağlayıb gələn ilhamla yazılmış əsərlərinə - poemalarına, lirik şeirlərinə, poetik publisistikasına bələd olmayan, artıq ədəbiyyatımızın faktı olan, bir çox hallarda ədəbi hadisə təsiri bağışlayan əsərlərini oxumayan hər kəs onun ünvanına deyilmiş qanadlı epitetin bir mübaliğə olduğunu da düşünə bilər, bunu bir dost zarafatı kimi də qəbul edər. Ancaq mən tam inamımla deyirəm ki, ədəbi prinsipallığına bələd olduğum, ictimai fikrimizdə sözünün nüfuzu ilə seçilən Qulu Məhərrəmlinin artıq məşhur olan həmin kəlamı kifayət qədər əsaslıdır.

***Yədulla AĞAZADƏ***